## 5. OXŞARLIQ HESABATLARINDA UNİVERSİTETİN MÜƏYYƏN ETDİYİ LİMİT HƏDDİ

5.1. Yoxlanılmış bakalavr buraxılış işi və magistr dissertasiyalarında oxşarlıq həddi təyin olunmuş limit həddindən yüksək olarsa, təhsil alana icazə verilir ki, bir ay ərzində dissertasiya işi üzərində düzəlişlər edərək dissertasiya və diplom işini təkrar sistemdə yoxlasın. İkinci yoxlamada da oxşarlıq həddi yenidən limitdən çox olarsa işin müdafiəsi növbəti semestrə saxlanılır.

5.2 Əgər qiymətləndirmə nəticəsində təqdim olunan diplom işləri, dissertasiyalarda plagiat faktları yoxdursa və ancaq sitatların miqdarı elmi işin 30%-dan artıqdırsa, bu işin orijinallıq dərəcəsi aşağıdır – bu elmi iş müdafiəyə buraxılmır və Sistemin Məlumatlar Bazasına əlavə edilmir. Bu halda tələbə elmi rəhbəri ilə məsləhətləşməli, elmi işi üzərində müvafiq dəyişikliklər aparmalı və ən azı 1 (bir) ay sonra elmi işini yenidən antiplagiat yoxlamasına təqdim etməlidir.

5.3 Yoxlanılmış bakalavr buraxılış işi və dissertasiyalarında oxşarlıq əmsalı 50%-dən çox, II Oxşarlıq Əmsalı 10%-a qədər olarsa iddiaçı 15 gündən sonra, II oxşarlıq əmsalı 10%-dən çox olarsa 1 aydan sonra dəyişiklik apararaq və elmi işini yenidən antiplagiat yoxlamasına təqdim etməlidir.

5.4 Elmi rəhbərin (məsləhətçinin) bir ildə birdən artıq, yaxud iki il ardıcıl olaraq rəhbərlik etdiyi tələbələrin işində plagiat faktı aşkarlanarsa -növbəti il onun elmi rəhbərliyi (passiv dərs saatı) aktiv dərs saatı ilə əvəz edilməsi tövsiyyə edilir.

5.5 Yoxlanılmış elmi məqalələr və tədris vəsaitlərində (Proqram, metodiki göstəriş, dərs vəsaitləri, dərslik və monoqrafiyalar) müəyyən edilən oxşarlıq limiti aşağıdakı kimidir:

- ***Fənn proqramları üzrə***:-I Oxşarlıq Əmsalı 50%-dən çox, II Oxşarlıq Əmsalı 10%-dən çox olmamalıdır;
- ***Dərsliklər üzrə:***- I Oxşarlıq Əmsalı 50%-dən çox II Oxşarlıq Əmsalı 10%-dən çox olmamalıdır;
- ***Dərs vəsaitləri üzrə:*** I Oxşarlıq Əmsalı 50%-dən çox II Oxşarlıq Əmsalı 7%-dən çox olmamalıdır;
- ***Dissertasiyalar (Bakalavr)üzrə:*** I Oxşarlıq Əmsalı 50%-dən çox II Oxşarlıq Əmsalı 7%-dən çox olmamalıdır;
- ***Dissertasiyalar (Magistr)üzrə:*** I Oxşarlıq Əmsalı 50%-dən çox II Oxşarlıq Əmsalı 4%-dən çox olmamalıdır;
- ***Dissertasiyalar (Fəlsəfə və elmlər doktoru)üzrə:*** I Oxşarlıq Əmsalı 50%-dən çox II Oxşarlıq Əmsalı 4%-dən çox olmamalıdır;
- ***Metodiki göstərişlər üzrə:*** I Oxşarlıq Əmsalı 50%-dən çox II Oxşarlıq Əmsalı 4%-dən çox olmamalıdır;
- ***Məqalələr üzrə:***- I Oxşarlıq Əmsalı 50%-dən çox II Oxşarlıq Əmsalı 4%-dən çox olmamalıdır;
- ***Monoqrafiyalar üzrə:*** I Oxşarlıq Əmsalı 50%-dən çox II Oxşarlıq Əmsalı 4%-dən çox olmamalıdır.

Təqdim olunan tədris vəsaitləri üzrə təyin olunan limitləri birinci dəfə aşan iddiaçılara 1 ay düzəliş üçün vaxt verilir. Düzəlişdən sonra müvafiq limitləri yenidən aşan müəlliflərin təqdim etdiyi tədris vəsaiti ləğv edilir. Oxşarlıq Əmsalları 80%-dən yuxarı olarsa həmin tədris metodiki vəsaitlər, dissertasiyalar və buraxılış işləri II dəfə yoxlamaya qəbul edilmir.

5.6 Diplom işləri, dissertasiyalar, elmi məqalələr və tədris vəsaitlərində təkrar yoxlama iddiaçıların şəxsi vəsaitləri hesabına həyata keçirir;

5.7 Oxşarlıq əmsalları yalnız universitetin Elmi Şurasının qərarı ilə dəyişdirilə bilər.

5.8 İnternetin dinamik strukturunu nəzərə alaraq təkrar yoxlamaların eyni nəticə verməsinə zəmanət vermir. Plagiat halı sonradan aşkar olunan buraxılış işləri, dissertasiyalar və tədris vastələri üzrə məsuliyyət müəllifin üzərindədir **(UNEC-in Elmi şurasının 29 iyun 2018-ci il tarixli iclasının 160 saylı qərarı)**.